

Sanki hafizələrə diqtə olunan aydın bariton səs dalğa-dalğa ətrafa yayılır:

... - Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin ölməz xatirəsinə həsr edilmiş ədəbi-bədii axşam açıq elan olunur. Təbrik üçün söz...

Rayonda mərkəzləşdirilmiş qaydada keçirilən rəsmi yaxud qeyri-rəsmi tədbirlərdə bu səsə o qədər öyrəşmişlər ki, xüsusi quruluşlu tamaşalarda mikrofondan başqa səs eşidəndə həm daimi tamaşaçılar, həm də onun hazırladığı tədbirlərin, tamaşa və konsert proqramlarının ilk dəfə iştirakçısı olanlar özlərindən asılı olmayaraq təəccüblənirlər; əvvəlkilər deyirlər: "görəsən o haradadır?" təzə tamaşaçılar isə yan-yörədən pıçıltıyla xəbər alırlar: "Bu səs kimin səsidir?"

Ocaqverdiyev Arzu Zahid oğlu - 1963-cü ildə Balakən rayonunda anadan olmuşdur.

1980-ci ildə Balakən şəhəri Nizami adına şəhər orta məktəbini bitirmişdir.

1982-ci ildə Azərbaycan İncəsənət İnstitutuna daxil olmuşdur.

# Bu səs kimin səsidir?

1988-ci ildə ali təhsilini dram və kino aktyoru ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurmuşdur.

C.Cabbarlı adına "Azərbaycan dili" kinostudiyasında yaradıcılıq fəaliyyətinə başlamışdır.

2003-cü ildən H.Cavid adına Balakən Rayon Mədəniyyət evinin direktoru işləyir.

Ailəlidir bir qız evladı var.

Arzu hələ orta məktəbdə oxuyanda teatr, kino sənətinin ecazkarlığı onu özünə cəlb edirdi. Reallığın özü qədər təbii olan səhnələr, həqiqətə yaxınlıq onun uşaq qəlbini riqqətə gətirir, sevdiyi obrazlarla yaşayır, görkəmli aktyorların yaratdıqları müxtəlif biçimli, bir-birindən kəskin fərqlənən səhnə və kino surətlərini gizlincə təqxid, bəzən özü də bilmədən tamamilə başqalaşır, təcəssümünü yaratmaq istədiyi müxtəlif insanların, tarixi şəxsiyyətlərin daxili aləmlərini, xarakterlərini günlərlə özünə təlqin edirdi. Bəzən onu hərdəmxəyal hesab edirdilər. Atası Zahid anası Səyyarə müəllimə açıq biruzə verməsələr də daxilən öz övladlarının gələcəyindən narahat olurdular.

Məktəb öz fəaliyyətində Arzu başqalarından seçilmirdi. Bəlkə də qabiliyyətini biruzə vermək üçün məktəb sahəsi ona geniş imkanlar aça bilmirdi, yaxud başqalarından çəkinirdi?.. Bunu onun uşaq qəlbi o zaman lazımınca dərk etmirdi. Yəqin ki, sənətdə nə isə belə bir qanunauyğunluq var. Axı, Azərbaycanın böyük aktyoru, milli teatr və kino sənətinin yaradıcısı, ustad sənətkar, Hüseyn Ərəblinskinin də ilk səhnə cəhdləri uğursuzluqla nəticələnmişdir.

Mahnıda deyildiyi kimi "yada düşəndə ürəyin tellərini sızladan" tələbəlik illəri Arzunun yaradıcılıq imkanlarını genişləndirdi, onun arzularının çiçəklənməsinə müsbət şərait yaratdı. Hələ tələbə ikən "Mosfilim"də, "Odessafilim"də onlarla sınaq çəkilişlərində iştirak etdi, hətta müxtəlif ittifaq filimlərində çəkiliş üçün dəvətlər aldı və çəkildi də.

Lakin onu doğma kinostudiyaya-C.Cabbarlı adına "Azərbaycanfilm"ə bağlayan tellər daha möhkəm, daha qırılmaz idi. Bu tellər onu "Yaşa, qızıl balıq" filminə gətirib çıxardı. Uğur qazandı. Daha sonra rejissor Əbdül Mahmudovun sərhədçilərin romantika və macəralarla dolu həyatından bəhs edən "Doğma sahillər" filmində əsas obrazlardan olan Serjant Vonronsov rolunda çəkildi. Yenə uğur... Rejissor Eldar Quliyevin Əfqanıstan döyüşlərindən bəhs edən "Təxribat" filmində çəkildiyi baş rol Arzuya daha bir şöhrət qazandırdı. "Azərbaycanfilmin" istehsalı olan "Qara volqa" filminə çoxları tamaşa edib. Filimdəki baş rollardan biri olan "Paxahın" əlaltısı "krasovçik Heydərəlini" Arzu özünün ən sevimli rolu kimi daim xatırlayır.

Sevimli müəllimləri-mərhum sənətkar Mikayıl Mirzə, Məhluqə Sadıqova, Nəsir Sadıqzadə və başqaları onun hafizəsindən heç zaman silinmir. Məhz onların təkidi, şəxsi nümunəsi, incəsənətə olan sonsuz bağlılıqları, sənət yanğıları Arzunun bir aktyor kimi yetişməsində əvəzsiz rol oynamışdır.

İllər ötür, çətinliklər bir-birini əvəz edir...

Sonralar kinostudiyanın imkanlarının azalması, maliyyə çatışmazlığı üzərindən bir sıra çəkilişlərin yarımçıq qalması Arzunun həyatından da təsirsiz ötüşmədi. Ailə problemləri onu yenidən doğma Balakənə gətirdi.

Rayonda gedən geniş vüsətli mədəni-iqtisadi quruculuq işləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Balakənə gəlişindən sonra şəhərin və kəndlərin salınmasını kökündən dəyişdirən qlobal yenidənqurma tədbirləri, rayon icra hakimiyyəti tərəfindən həyata keçirilən yeniliklər Arzunun hazırladığı konsertlərdə və digər kütləvi xarakterli tədbirlərdə daim ön plana çəkilir, reallıqlar rayon camaatına incəsənətin dili ilə çatdırılır.

Söz düşəndə o, həmişə deyir: "Azərbaycan mədəniyyətini dünyaya tanıtdırmaq üçün heç də Parisdə, Londonda, Meksikada olmaq lazım deyil. Bizim tele proqramlara dünya baxır, respublikamıza turist axını gündən-günə güclənir. Biz elə öz yerimizdə də işimizi düzgün qursaq, deməli dövlətimizin mədəniyyət siyasətini uğurla yerinə yetirilməsinə xidmət etmiş oluruq və bununla da Azərbaycanı dünyaya tanıdırıq. Əsas məsələ can yandırmaqdır."

Gəlin bu nəcib işində Arzuya yeni-yeni sənət uğurları arzulayaq! Həyat irəlidədir. Böyük səhnənin, geniş ekranın yolu isə həmişə istedadlar üçün açıqdır.

**Zakir QARAYEV**